**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1**. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 noyabr saat 06:00-dək uzadılsın.

**2**. “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020,   9, maddələr 1209, 1231,   10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315,   11, maddələr 1387, 1394,   12 (V kitab), maddələr 1588, 1592, 1612; 2021,   1, maddələr 92, 106,   3, maddələr 267, 290, 291,   4, maddə 403,   5, maddə 530,   6 (IV kitab), maddələr 683, 692,   7, maddələr 868, 882,   8, maddə 974,   9, maddə 1079,   10, maddə 1191,   12, maddələr 1514, 1524; 2022,   2, maddə 176,   3, maddə 258,   4, maddə 417; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 20 iyun tarixli 232 nömrəli Qərarı) 1.1-ci bəndində “sentyabr” sözü “noyabr” sözü ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 23 avqust 2022-ci il
325